

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 246 (21.398)

15 dekabr 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 14 dekabr tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları da vardır.

**Cabbarov Murad Rasim oğlu – mayor**
**Həsənov Sahib Heydər oğlu – kapitan**
**Baxşəliyev Samir Baxşəli oğlu – baş leytenant**
"Hərbi xidmətlərə görə" medalı ilə,
**Ağalarov Şakir Mamo oğlu – daxili xidmət polkovnik-leytenantı**
**Həsənov Nurlan Fazil oğlu – daxili xidmət polkovnik-leytenantı**

"Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edilmişlər.

## Şərur rayonunun Axaməd kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Naxçıvanda işlər çox yaxşı gedir, quruculuq-abadlıq işləri aparılır. Mənim Naxçıvana səfərlərim mütəmadi xarakter daşıyır və hər dəfə bir çox açılışlarda iştirak edirəm. Bu da dinamik inkişafın təzahürüdür".***

Bu gün muxtar respublikada ulu öndərin siyasi xətti uğurla davam etdirilir. Naxçıvan yeni inkişaf dövrünü yaşayır. Bu dinamik inkişaf bütün bölgələri əhatə etmişdir. Hər il rayon mərkəzləri və kəndlərdə yeni sosial obyektlər tikilərək istifadəyə verilir. Son illər muxtar respublikanın ən böyük yaşayış məntəqəsi olan Şərur rayonunda da insanların rahat yaşayışı üçün lazımi infrastruktur yaradılmışdır. Bu tədbirlərdən Axaməd kəndinə də pay düşmüş, bu il kənddə kompleks quruculuq işləri aparılmışdır.



## Kənd yolu yenidən qurulmuşdur

Dekabrın 14-də Axaməd kənd yolunun açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, yolun istifadəyə verilməsi münasibətilə sakinləri təbrik etmişdir.

Sonra Ali Məclisin Sədrinə yolda aparılan yenidənqurma işləri barədə məlumat verilmişdir.

Bildirilmişdir ki, aparılan tikinti-quruculuq işləri çərçivəsində 4 kilometrlik yola asfalt örtük salınmışdır. Yol yatağının genişləndirilməsi nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini və sakinlərin rahatlığını təmin etmişdir. Yolun üzərində 36 su keçidi qoyulmuş, 380 metrlik beton kanal çəkilmiş, kənddaxili yollara 2600 metr məsafədə qum-çınqıl qatı verilmişdir.

## Axaməd kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir

Dekabrın 14-də Axaməd kənd tam orta məktəbinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov şəhid Sədi Əsgərovun məktəbin həyatındakı büstü önünə gül dəstəsi qoymuş, açılışı bildirən lenti kəsmişdir.

Tədbirdə məktəbin direktoru Arif Yusifov çıxış edərək demişdir ki, bütün zəruri vasitələrlə təchiz olunan məktəb binasında şagirdlərin yaxşı təhsil alması üçün hər cür şərait vardır. Xüsusilə yeni informasiya texnologiyalarının müəllim və şagirdlərin istifadəsinə verilməsi tədrisin mütərəqqi metodlar və yeni tələblər əsasında təşkilinə imkan verəcəkdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Axaməd kəndində aparılan abadlıq-quruculuq işləri çərçivəsində yeni məktəb binasının da istifadəyə verildiyini bildirmiş, bu münasibətlə müəllim və şagirdləri təbrik edərək demişdir: Ölkəmizdə təhsilin inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilir. Bu da Azərbaycanın dünya təhsil sistemində öz layiqli yerini tutmasına və ciddi nailiyyətlərin qazanılmasına imkan verir. Bu gün Azərbaycanda gənclərin təhsilin bütün pillələri üzrə hərtərəfli təhsil alması üçün lazımi şərait yaradılmışdır. Hər bir gənc bu şəraitdən istifadə edərək seçdiyi peşə üzrə təhsilini davam etdirmək, əsl vətəndaş kimi yetişmək imkanına malikdir.

Ümummilli liderimiz Heydər Əliyevin ***"Təhsil sahəsində əldə etdiyimiz nailiyyətlər bizim milli sərvətimizdir"***, – fikrini xatırladan Ali Məclisin Sədri demişdir ki, təhsilli gənclər ölkəmizin milli sərvəti olmaqla yanaşı, həm də onun gələcəyinin təminatçılarıdır. Bu mənada məktəb kollektivlərinin qarşısında mühüm vəzifələr durur. Müəllimlər gənclərə yaxşı təhsil verməli, vətənpərvər böyütməli, onları gələcək həyata hazırlamalıdırlar. Gənclər isə yaxşı təhsil almalı və özlərini ölkəmizin gələcək qurucuları hesab etməlidirlər.

Ali Məclisin Sədri demişdir: Vətənpərvərlik hissi hər bir insan üçün həyatda ən dəyərli və qiymətli hissdir. Ona görə də, ilk növbədə, gənclərimizə vətənpərvərlik hissi aşılanmalı, onlara qarşılarında duran vəzifələr izah olunmalıdır. Bu gün yaxşı təhsil almaq, yaradılanlardan, qurulanlardan səmərəli istifadə etmək gənclərin qarşısında duran əsas vəzifədir. Dövlətimiz tərəfindən Axaməd kənd tam orta məktəbində yaradılan müasir tədris şəraiti bu vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verəcəkdir. Ötən tədris ilində qazanılan nailiyyətlər onu deməyə əsas verir ki, məktəbdə müəllim-şagird münasibətləri düzgün qurulur, tələbkarlıq vardır.

Qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür edən Ali Məclisin Sədri yaradılan şəraitdən düzgün istifadə olunacağına əminliyini bildirmişdir.

Sonra Ali Məclisin Sədri məktəb binası ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, üçmərtəbəli məktəb binası 192 yerlikdir. Burada 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter otağı, müəllimlər otağı, kitabxana, bufet və idman zalı vardır. Məktəbin kitabxanası uşaqların hərtərəfli bilik almasında və dünyagörüşünün artırılmasında mühüm baza rolunu oynayır. Hazırda kitabxananın fondunda 3418 kitab vardır.

Muxtar respublikanın ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi işləri çərçivəsində yeni informasiya texnologiyaları ilə təminat xüsusi yer tutur. Axaməd kənd tam orta məktəbində də informasiya texnologiyaları tətbiq olunmuş, kompüter otağında 17 kompüter dəsti quraşdırılaraq internetə qoşulmuşdur.






Elektron lövhəli sinfə baxış zamanı qeyd olunmuşdur ki, hazırda muxtar respublikanın 221 təhsil müəssisəsi ilə "Xan Sarayı" Dövlət

Ardı 2-ci səhifədə

Tarix-Memarlıq, Möminə xatın və Açıq Səma Altında Muzey Kompleksi arasında distant dərs keçirilir, şagirdlərə muzey bələdçisi tərəfindən ətraflı məlumat verilir.

Məktəb bütün ixtisaslar üzrə pedaqoji kadrlarla komplektləşdirilmişdir. Müəllimlər ibtidai sinif şagirdlərinin dərslərə hazırlıq səviyyəsini diqqət mərkəzində saxlayır, valideynlərlə mütəmadi görüşlər keçirirlər. Bu il birinci sinfə 11 şagird qəbul olunmuşdur. Kimya-biologiya və fizika laboratoriyalarının hər biri müasir tədris-təcrübə avadanlıqları ilə təmin edilmişdir. Hərbi kabinədə də lazımi əyani vəsaitlər şagirdlərin istifadəsinə verilmişdir.

Qeyd olunmuşdur ki, Axaməd kənd tam orta məktəbində çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisinə xüsusi diqqət yetirilir. Bu il məktəbin 2 şagirdi Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur. Həmçinin ötən tədris illərində bu məktəbi bitirən məzunlar ali hərbi məktəblərdə öz təhsillərini davam etdirirlər.



Ali Məclisin Sədri çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisini düzgün təşkil etdiyinə görə məktəbin hərbi rəhbərinə təşəkkür etmişdir.

Gənclərdə idmana maraq ümumtəhsil məktəblərində formalaşdırılır. Bu zərurət nəzərə alınaraq məktəbdə geniş idman zalı yaradılmış və həyətdə açıq idman qurğuları qoyulmuşdur.

Ali Məclisin Sədri müəllimlərlə görüş zamanı demişdir ki, ölkəmizdə təhsilin inkişafına hərtərəfli qayğı göstərilir. Müasir məktəb binaları tikilib istifadəyə verilir, müəllimlərin əməkhaqqısı artırılır. Axaməd kənd tam orta məktəbində də lazımı tədris şəraiti vardır. Məktəbin müəllimlərindən 1-i "Tərəqqi" medalı ilə təltif edilib. Dövlətimiz tərəfindən bu tədbirlər ona görə həyata keçirilir ki, ölkəmizin gələcəyinə xidmət edən bilikli və vətənpərvər gənclər yetişdirilsin. Pedaqoji kollektiv bu sahədə səylərini daha da artırmalı, qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilməlidir.

Müəllim Tamaraxanım Aşurlu göstərilən diqqət və qayğıya görə minnətdarlıq edərək demişdir ki, təhsilin davamlı inkişaf etdiyi bir ölkədə yaşayıb fəaliyyət göstərmək pedaqoji kollektivi daha da ruhlandırır, onların məsuliyyətini artırır. Axaməd kənd tam orta məktəbində bu cür müasir şəraitin yaradılması gənclərimizin daha bilikli, dünyagörüşlü və vətənpərvər böyüdülməsinə hesablanıb. Hər bir müəllim çalışacaq ki, yaradılan şəraitdən düzgün istifadə edərək göstərilən etimadı doğrultsun.

Məktəbin həyatında də geniş abadlıq işləri görülmüş, yaşıllıqlar salınmışdır.

## Axaməd Kənd Mərkəzinin açılışı olmuşdur





Dekabrın 14-də Axaməd Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kənd mərkəzinin açılışını etmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, mərkəzin ikimərtəbəli binasında kənddə fəaliyyət göstərən dövlət qurumları üçün nümunəvi iş şəraiti yaradılmışdır. Burada rabitə evi, feldşer-mama, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, klub və iclas zalı vardır. Kəndin kitabxanasında müasir şərait yaradılmış, 2077 müxtəlif bədii ədəbiyyat sakinlərin istifadəsinə verilmişdir.

Dərman preparatları ilə təmin olunan baytarlıq məntəqəsinin fəaliyyət göstərməsi kənd əhalisi üçün xüsusi əhəmiyyət kəsb edir. Baytarlıq xidməti işçiləri mal-qaranın sağlamlığının qorunmasını diqqət mərkəzində saxlayır, mütəmadi olaraq təsərrüfatlarda dezinfeksiya işləri aparırlar.

Rabitə evində abonentlərə keyfiyyətli telefon və internet xidməti göstərilir. Burada poçt əməliyyatlarının, kommunal və bank ödənişlərinin aparılması, gündəlik dövri mətbuat, danışıq və internet kartlarının satışı təşkil edilmişdir.

Feldşer-mama məntəqəsində müdir, mama və manipulyasiya otaqları istifadəyə verilmişdir. Məntəqədə müayinə və ilkin tibbi yardımın göstərilməsi üçün lazımi avadanlıqlar qoyulmuşdur.

Ali Məclisin Sədri insanların sağlamlığının qorunması və səhiyyə maarifi işinin aparılması ilə bağlı tapşırıqlar vermişdir.

Kənd mərkəzindəki iclas zalında müxtəlif tədbirlərin keçirilməsi üçün şərait vardır.



## Axaməddə xidmət mərkəzi istifadəyə verilmişdir






Xidmət mərkəzləri kənd sakinlərinin zəruri məişət tələbatlarının ödənilməsi baxımından olduqca əhəmiyyətlidir.

Dekabrın 14-də Axaməddə yeni xidmət mərkəzi də istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov xidmət mərkəzinin açılışını etmişdir.

Məlumat verilmişdir ki, mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir. Mağazalarda gündəlik tələbata uyğun ərzaq məhsulları, məişət avadanlıqları və təsərrüfat mallarının satışı təşkil olunmuşdur. Mərkəzdə 5 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra kənd sakinləri ilə görüş olmuşdur.

Ali Məclisin Sədri kənddə aparılan quruculuq işləri münasibətilə sakinləri təbrik edərək demişdir: Axaməd kəndi tamamilə yenidən qurulmuş, kənd üçün vacib olan bütün sahələri əhatə edən yeni sosial obyektlər tikilib istifadəyə verilmişdir. Kəndin bərəkətli və məhsuldar torpaqları vardır. Əkinçiliyin və heyvandarlığın inkişafı üçün lazımi şərait yaradılıb. Artıq Axaməd kənd sakinləri rayon mərkəzinə getmədən gündəlik problemlərini öz kəndlərində həll edəcəklər. Dövlətimiz bu işləri ona görə görür ki, insanlar rahat yaşasın, gələcəyimiz olan uşaqlar müasir şəraiti olan məktəblərdə təhsil alsınlar. Sakinlərin də üzərinə düşən vəzifə yaradılan şəraitdən səmərəli istifadə etməkdir. Kənddə təsərrüfatlar genişləndirilməli, bol məhsul istehsal olunmalıdır. Çünki təsərrüfatlar

*Ardı 3-cü səhifədə*

inkişaf etdikcə əhalinin yaşayış şəraiti daha da yaxşılaşacaq, muxtar respublikanın ərzaq təhlükəsizliyi möhkəmlənəcək, ölkəmizin iqtisadi gücü artacaqdır.

Kərəm Aşurov kənd sakinləri adından minnətdarlıq edərək demişdir ki, bu gün ölkəmizdə şahidi olduğumuz inkişaf və tərəqqi ulu öndər Heydər Əliyevin ideyalarına sədaqətin bəhrələridir. İndi muxtar respublikanın ən ucqar kəndində də bu inkişaf və tərəqqinin şahidi oluruq. Sevinirik ki, bu gün Axaməd kəndi də müasir görkəm alaraq inkişaf etmiş yaşayış məntəqələri sırasına qoşuldu. Bütün bunlar əhalinin firavanlığına və rahat yaşamasına şərait yaradır, insanları doğma yurduna daha sıx tellərlə bağlayır. Kənd adamları yaradılan şəraitdən ruhlanaraq təsərrüfatlarını daha da genişləndirəcək, muxtar respublikanın inkişafına öz töhfələrini verəcəklər.

* * *

Kəndin rabitə və elektrik enerjisi təchizatının dayanıqlılığı da təmin olunmuş, 2850 metrlik fiber-optik kabel, 6950 metr uzunluğunda rabitə və 2 kilometr məsafədə yeni elektrik verilişi xətləri çəkilmişdir. Həmçinin yeni tikililərə 250 metr uzunluğunda qaz xətti çəkilmiş, 1200 metr qaz xəttinin yeri isə dəyişdirilmişdir.



## "Şərur-3" MMC-nin yeni istehsal sahəsi fəaliyyətə başlamışdır





Muxtar respublikada sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradılmış, əlverişli biznes və investisiya mühiti formalaşdırılmışdır. İstifadəyə verilən yeni müəssisələr özəl bölmənin inkişafına təkan vermiş, yerli istehsalın həcmi artmışdır. Bu sahədə görülən işlərin davamı olaraq "Şərur-3" Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni istehsal sahəsi fəaliyyətə başlamışdır.

Dekabrın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni istehsal sahəsinə baxmışdır.

Sahibkar Fikrət Əhmədov məlumat vermişdir ki, ümumi sahəsi 4950 kvadratmetr olan müəssisə üçün yeni bina tikilmiş, ən müasir istehsal avadanlıqları quraşdırılmışdır. Sahibkarlığa Kömək Fondu tərəfindən ayrılan kredit və şəxsi vəsait hesabına yaradılan müəssisədə emal bölməsi, istehsal, qablaşdırma, meyvə və bitki cövhərlərinin saxlanılması sahələri, laboratoriya, iş otaqları, hazır məhsul və xammal anbarları vardır. İstehsal prosesi tamamilə avtomatlaşdırılmışdır.

İstehsal gücü saatda 2 min butulka olan müəssisədə 14 çeşiddə araq və 3 çeşiddə likör istehsal olunur. Xammal kimi muxtar respublikada bitən və yetişən kəklikotu, baldırğan, zirinc, qara tut, heyva, şaftalı, ərik və albalıdan, eləcə də yüksəkkeyfiyyətli spirtdən istifadə olunur. Məhsul gümüş filtrdən keçirilərək standartlara uyğun süzülür. 100, 250 və 500 millilitrlik şüşə butulkalarda qablaşdırılan içkilər lazımi laboratoriya analizlərindən keçirildikdən və keyfiyyətinə müvafiq qaydada zəmanət verildikdən sonra satışa buraxılır.

Ali Məclisin Sədri istehsal prosesinin ardıcıl texnoloji tələblər əsasında aparılması, keyfiyyətə daim nəzarət edilməsi, daxili bazarın tələbatının ödənilməsi və ixrac imkanlarının yaradılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**




## Muxtar respublikada dövlət qulluqçularının fəaliyyətinə hərtərəfli şərait yaradılıb

***Naxçıvan Muxtar Respublikasında dövlət qulluğu sahəsində aparılan islahatlar uğurla davam etdirilir. Dövlət qulluqçularının fəaliyyətinin yaxşılaşdırılması, onlara lazımi iş şəraitinin yaradılması daim diqqət mərkəzində saxlanılır. Dövlət idarəçiliyi sistemində yeni informasiya texnologiyalarının tətbiqi bu sahədə fəaliyyətin günün tələbləri səviyyəsində təşkilinə imkan verir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılan şəraitdən istifadə edərək 2015-ci ildə də işini tələb olunan səviyyədə qurmağa çalışmışdır. Komissiya bu dövrdə muxtar respublikada dövlət orqanlarının yüksək hazırlıqlı və zəruri peşə keyfiyyətlərinə malik kadrlarla komplektləşdirilməsi işini davam etdirmişdir. Bu məqsədlə dövlət orqanları ilə mütəmadi əlaqə saxlanılmış, vakant vəzifələr müəyyənləşdirilərək müsabiqələr elan edilmiş, dövlət orqanlarında inzibati vəzifələrin VI-VII təsnifatlarına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 2 müsabiqə keçirilmişdir. Obyektivliyin və şəffaflığın təmin edilməsi məqsədilə müsahibə qrupunun tərkibində müstəqil ekspertlərin, komissiyanın və dövlət orqanlarının nümayəndələrinin iştirakı təmin edilmiş, müsahibə prosesinin video çəkilişi aparılmışdır.

Ümumilikdə, 2015-ci ildə dövlət orqanları tərəfindən elan olunan vakant vəzifələrin tutulması üzrə müsabiqələrdə iştirak üçün 796 namizəd sənəd təqdim etmişdir. Müsabiqələrin test imtahanları mərhələsində iştirak edən 725 namizəddən 310-u keçid balını toplayaraq növbəti mərhələdə iştirak etmək hüququ qazanmışdır. Müsabiqənin müsahibə mərhələsində iştirak etmək üçün sənədlərini komissiyaya təqdim edən 274 namizəddən 260-ı bu mərhələdə iştirak etmişdir. Müsahibə zamanı namizədlərə ixtisasına, iddia etdiyi vəzifənin qulluq funksiyasına, xarici dil biliklərinə, informasiya texnologiyalarından istifadə bacarığına uyğun suallar verilmişdir. Yekunda 142 namizəd müsabiqənin bütün mərhələlərini uğurla başa vurmuşdur. Həmin şəxslərin 137-si vəzifəyə təyin olunmuş, 1 namizəd hüquq-mühafizə orqanında işlə təmin olunduğuna görə təklif olunan vəzifədən imtina etmişdir. 4 namizəd isə ehtiyat kadr siyahısına salınmışdır. Ehtiyatda saxlanılan kadrların işlə təmin olunması da komissiya tərəfindən diqqətdə saxlanılmış, onlardan 2-si ixtisasına uyğun işlə təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqələrin test imtahanlarının keçirilməsinə də lazımi köməklik göstərilir. Hesabat dövründə Dövlət Miqrasiya Xidməti, Daxili İşlər, Vergilər və Fövqəladə Hallar nazirliklərində vakant vəzifələrin tutulması üçün test imtahanları müsabiqələrin şərtlərinə uyğun keçirilmişdir. Test imtahanlarında 497 namizəd iştirak etmiş, onlardan 104-ü müvəffəqiyyət qazanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən imtahanların test bazası da daim təkmilləşdirilir və yeni suallarla zənginləşdirilir. Komissiyanın üzvləri bu ilin ötən dövründə qanunvericiliyə aid 142, ümumi dünyagörüşü üzrə 120, informasiya texnologiyaları üzrə 171 yeni test sualları işləyib hazırlamışlar.

Komissiyanın internet saytı davamlı olaraq yenilənir. Saytda bu günədək keçirilən tədbir və seminarlar, dövlət qulluqçularının etik davranış qaydalarına riayət etməsi barədə müraciətlərin qəbulu, dövlət orqanlarına ehtiyat kadrlar, dövlət qulluqçularının reyestri, müsabiqə və müsahibə nəticələri barədə ətraflı məlumatlar verilir. Həmçinin sayt üzərindən komissiya tərəfindən elan olunan müsabiqələrə qeydiyyat üçün müraciət və sənədlərin qəbulu üzrə elektron xidmətlər də göstərilir. Hesabat dövründə dövlət qulluqçularının reyestrinin elektron formada aparılması işi davam etdirilmiş, 2199 dövlət qulluqçusunun reyestr məlumatları bazaya işlənilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına uyğun olaraq, 2015-ci il noyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya sədrinin Naxçıvan Dövlət Universitetinin Dövlət və bələdiyyə idarəetməsi ixtisasının tələbələri ilə görüşü keçirilmiş, tələbələrə zəruri dərsliklər təqdim olunmuşdur. Həmçinin komissiyanın əməkdaşları tərəfindən dekabrın 8-də Naxçıvan Dövlət Universitetində "Dövlət idarəetməsinin Azərbaycan modeli" və "İnkişaf etmiş ölkələrdə dövlət qulluğunun xüsusiyyətləri" mövzularında açıq dərs keçilmişdir.

Komissiyada vətəndaşların müraciətlərinə baxılması və ictimaiyyətlə əlaqələr üzrə iş də qanunvericiliyin tələblərinə uyğun həyata keçirilir. Ötən müddətdə komissiyaya daxil olan 17 ərizə və 85 elektron müraciətə qanunla nəzərdə tutulmuş müddətlərdə baxılaraq cavablandırılmışdır. Cari ilin avqust ayında muxtar respublikanın şəhər və rayonlarında 474 dövlət qulluqçusunun iştirakı ilə etik davranış qaydalarına riayət olunması, reyestrin və dövlət qulluqçularının şəxsi işinin aparılması qaydaları və digər mövzularda seminarlar keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın kollektivi qarşıya qoyulmuş vəzifələrin vaxtında və günün tələbləri səviyyəsində yerinə yetirilməsi üçün səylərini bundan sonra daha da artıracaqdır.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya***

## Muxtar respublikada arxivin yaradılmasının 90-cı ildönümü qeyd edilib

*Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsində muxtar respublikada arxivin yaradılmasının 90-cı ildönümü münasibətilə tədbir keçirilib.*



Tədbir iştirakçıları əvvəlcə Naxçıvan şəhərinin baş meydanında ucaldılan ulu öndərin əzəmətli abidəsi önünə gül dəstələri qoyaraq Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsində davam etdirilən tədbirdə idarənin rəisi Fəxrəddin Cəfərov çıxış edib. Bildirilib ki, muxtar respublikamızda arxiv işinin əsası 1925-ci ildə Mərkəzi Dövlət Arxivinin yaradılması ilə qoyulub, 1930-cu ildə isə Naxçıvan Arxiv İdarəsi təşkil edilib. Arxiv İdarəsi və Mərkəzi Dövlət Arxivi 1960-cı ilə qədər Naxçıvan Daxili İşlər Komissarlığının tabeliyində fəaliyyət göstərib, 1960-cı ildən sonra hər iki qurum Daxili İşlər Komissarlığının tabeliyindən çıxarılıb və Naxçıvan Muxtar Respublikası Nazirlər Sovetinin tabeliyinə verilib. Muxtar respublikada arxiv işinin təkmilləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər müstəqillik illərində böyük sürətlə davam etdirilib. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Fərmanına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 6 dekabr tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Arxiv İdarəsinin bazasında Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi yaradılıb. Bu gün Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi öz ətrafında bir Mərkəzi Dövlət Arxivi və 7 rayon Dövlət Arxivini birləşdirir.

Qeyd olunub ki, fəaliyyəti dövründə Arxiv İdarəsinin fonduna mühüm sənədlər toplanıb. Arxivdə 1023 fondda 80 mindən çox kağız əsaslı idarəçilik işi, elm, mədəniyyət, ədəbiyyat və incəsənət, dövlət xadimlərinin 2 minə yaxın işdən ibarət elmi və texniki sənədləri, 84 minə yaxın foto və 4 mindən çox kino sənədi mühafizə olunur. Burada 1831-ci ildən günümüzədək bir çox qiymətli sənədlər qorunur. Bu sənədlər içərisində Naxçıvan qəza polis idarəsinə, xalq məktəbləri müdiriyyətinə, hərbi komissarlığa, torpaq şöbəsinə, Culfa, Şahtaxtı gömrük məntəqələrinə, Culfa poçt-teleqraf kontoru və digər təşkilatlara aid materiallar vardır.

Fəxrəddin Cəfərov tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, bu gün muxtar respublikada tarixi keçmişimizi özündə yaşadan arxiv sənədlərinin qorunması və saxlanılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. 2012-ci ildə istifadəyə verilən yeni bina arxiv işçilərinə göstərilən diqqət və qayğının daha bir nümunəsidir. Yaradılan yüksək şərait arxiv fondlarında saxlanılan yüz minlərlə sənədin etibarlı şəkildə mühafizə olunmasına imkan verir.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin direktoru Zülfiyyə İsmayılovanın, aparıcı mütəxəssis Zərifə Abdullayevanın çıxışları olub.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov Ali Məclis Sədrinin "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında 10 dekabr 2015-ci il tarixli Sərəncamını oxuyub, təltif olunan arxiv işçilərinə "Rəşadətli əməyə görə" nişanını təqdim edib.

*Dekabrın 14-də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən Şahbuz rayonunda maarifləndirici tədbir keçirilib.*

## Dövlət Miqrasiya Xidməti Şahbuz rayonunda maarifləndirici tədbir keçirib



Tədbirdə rayon Polis Şöbəsinin sahə inspektorları və inzibati ərazi dairəsi üzrə nümayəndələr iştirak ediblər. Məqsəd miqrasiya sahəsində iştirakçıların maarifləndirilməsi olub.

Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Əlləddin Ağayev açaraq son illərdə rayonda əhalinin məşğulluğunun təmin olunması sahəsində görülən işlərdən, hazırda əmək miqrantlarının maraq göstərdiyi sahələrdən, bu sahələrdə yerli ixtisaslı kadrların yerləşdirilməsinin vacibliyindən söhbət açıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşı Şahin Nəbiyev əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin əmək fəaliyyətinə dair məhdudiyyətlər, onların ölkəmizdə işə cəlb olunması və respublikamızda əmək miqrasiyasının hüquqi tənzimlənməsi barədə məlumat verərək bildirib ki, muxtar respublikada 10 gündən artıq müvəqqəti yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduqları yer üzrə qeydiyyata alınmalıdırlar. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması üçün dövlət rüsumu ödənilmir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yerdən getdikdə qəbul edən tərəf və ya şəxs özü bu barədə şəxsən Dövlət Miqrasiya Xidmətinə məlumat verməlidir və bu məlumat əsasında onlar olduqları yer üzrə qeydiyyatdan çıxarılmalıdırlar.

Şahin Nəbiyev deyib ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsinə əsas olan hallar mövcud olduqda Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma və ya müvəqqəti yaşama müddətinin bitməsinə azı 30 gün qalmış bu barədə icazə alınması üçün şəxsən və ya qanuni nümayəndələri vasitəsilə müraciət etməlidirlər.

Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarından Zakir Məmmədovun və Rahib Kərimovun çıxışları olub. Çıxışlarda miqrasiya sahəsində ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən kompleks tədbirlərdən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətindən, onların ölkə ərazisində müvəqqəti olma müddətlərinin uzadılmasından, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsindən söhbət açılıb. Bundan başqa, ölkə ərazisində haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə işəgötürənlər tərəfindən fərdi icazələrin alınması və müddətlərinin uzadılması, onların yaşayış yerləri üzrə qeydiyyata alınması prosedurları, miqrasiya sahəsində mövcud qanunvericiliyin tələblərinin pozulmasına görə məsuliyyət, həmçinin miqrasiya ilə bağlı digər məsələləri tənzimləyən qanunvericilik aktları barədə də tədbir iştirakçılarına ətraflı məlumat verilib.

Tədbirə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəis müavini Elnur Məmmədov yekun vurub.

**Xəbərlər şöbəsi**

## İndi yağan qar yeni qayğılar, çətinliklər yox, bolluq-bərəkət gətirir



*Qış fəslinin ən gözəl və necə deyərlər, olmazsa olmazlarından biri də qarın yağması, şəhər və kəndlərin ağ örpəyə bürünməsi, qartopu oynayan uşaqların şən-şaqraq səslərinin küçə və xiyabanlarda eşidilməsidir. Dünən səhər saatlarından etibarən Naxçıvan şəhərinə yağan qar da insanlarda əsl bayram əhval-ruhiyyəsi yaradıb, ətrafdakı əlvan çalarlar bir neçə dəqiqənin içində paklığın və təmizliyin simvolu olan ağ rəngə təslim olub.*

…Orta və yaşlı nəslin nümayəndələri mənimlə razılaşar ki, nədənsə, hələ də qar yağanda uşaqlıq illərini, doğulub boya-başa çatdığımız məhəlləni, bir yerdə oynadığımız dostlarımızı, qar yağan kimi qış qayğılarının ağırlığı ilə odun-kömür tədarükü edən valideynlərimizi xatırlayırıq. Yaxşı yadımdadır, 1989-cu ilin soyuq bir qış günündə, qar yağanda məhəllədən olan dostlarımla küçəyə çıxıb o ki var oynamış, bir neçə saat sonra bərk üşüdüyümü hiss edib evə, isti sobanın yanına tələsmişdim. Ara qarışan vaxtlar idi. Ancaq, bəlkə də, həyatının "Araz aşığımdan, Kür topuğumdan" dövrü olması səbəbindən idi ki, valideynlərimin qayğılı simalarından qış aylarının gətirdiyi çətinlikləri hiss etmirdim. Evə girib onsuz da alovu get-gedə azalıb öləziyən qaz sobasının yanında oturmuşdum. Həmin vaxt hiss elədim ki, soba yavaş-yavaş soyumağa başlayır. Əyilib sobanın qapağını qaldıranda gördüm ki, elektrik enerjisinin aramla verilməsi səbəbindən tez-tez evimizdə yanan şamın işığı boyda qalan mavi alov da insanların o dövrdəki sabaha inamları kimi sönüb, öləziyib. Sonra xəbər gəldi ki, Naxçıvana gələn qaz xəttini partladıblar. Bəlkə də, elə həmin gündən mən böyüməyə başladım, həyatın çətinliklərini də elə o zaman hiss etdim. Bir neçə saat sonra qaz sobasını lazımsız bir əşya kimi söküb zirzəmiyə apardıq, əvəzinə zirzəmidən köhnə kömür sobasını çıxarıb qurduq. Ancaq yandırmağa kömür yox idi. Ona görə də atamla səhər tezdən oyanıb dəmir yolu kənarına, əvvəllər kömür satılan yerə yollandıq. Eşitmişdik ki, buraya bir neçə vaqon kömür gətirilib. Atam evdən bir miqdar pul götürmüşdü ki, buradan kömür alaq və evə gətirək. Ancaq bütün cidd-cəhdlərimizə baxmayaraq, kömür ala bilmədik, qurduğumuz kömür sobasında qızınmaq bizə qismət olmadı. Çünki o zaman bütün şəhər əhalisi, hətta ictimai yaşayış binalarında yaşayanlar belə, kömür almaq üçün buraya gəlmişdilər. Hamının kömür almaq üçün gözünü dikdiyi vaqonlar göz qırpımında boşaldı və biz əliboş evə qayıtmalı olduq. Elə həmin gün dərsimi oxumaq əvəzinə dünəndən yağıb ətrafı ağ yorğana bürümüş o ilk qarı, məni hədsiz sevindirmiş bəyaz örtüyü bir az da hirslə ayaqlaya-ayaqlaya əlimdə balta odun "ovuna" çıxdım. Həmin şaxtalı, qarlı qışda mən və məhəlləmizdəki yaşıdlarımın günü çöldən-bacadan odun toplamaqla keçdi. Məktəb çantaları balta ilə, odunları güc-bəla ilə daşıdığımız xizəklə əvəz olundu. Xülasə, minbir əziyyətlərlə, məhrumiyyətlərlə o qışı birtəhər başa vurduq. Bu hadisədən keçən bir neçə il ərzində də yağan ilk qar nə məni, nə də valideynlərimi sevindirə bildi.

İndi rahat, işıqlı, isti iş otağımın pəncərəsindən yağan qara tamaşa edəndə, qartopu oynayan uşaqları, xoşbəxt və gülərüzlü valideynləri görəndə fikirləşirəm ki, bu günün uşağı da, valideyni də nə qədər xoşbəxtdir. Çünki nə elektrik enerjisində korluğu var, nə də mavi yanacaqdan. Bu günün yeniyetməsi sübh çağından kilometrlərlə uzaqlıqdakı bağlardan odun qırmağa, çörək mağazaları önündə titrəyə-titrəyə növbəyə dayanıb çörək almağa yox, məktəbə, kitabxanaya, idman zallarına tələsir. Bu günün valideynini isə həlli olmayan məişət problemləri, elektrik enerjisi, istilik, su problemi narahat etmir. O, qışın ən sərt günündə belə, ölkəmizin gələcəyi naminə çalışmaq, qurmaq, yaratmaq üçün iş yerinə tələsir, işdən sonra isə isti, işıqlı evlərdə övladının qayğısına qalır. Artıq yurdumun insanlarını müstəqillik illərinin əvvəllərindəki kimi yağan qar qorxutmur, əksinə, sevindirir, fərəhləndirir. Çünki təbiətin istənilən şıltaqlığına qarşı hazırlıq ən incə detallarına qədər düşünülmüş şəkildə aparılıb. Bu gün yaradılan şərait insanları hər bir çətinlikdən qurtarıb, onlarda dövlətimizə güvən, gələcəyə inam hissi yaradıb. İndi yağan qar yeni qayğılar, çətinliklər, məhrumiyyətlər yox, bolluq-bərəkət gətirir. Qar yağırsa, axar sular kəsilməyəcək, çeşmələrimiz, bulaqlarımız çağlayacaq, daşlardan, qayalardan ilbəil təmizlənən, əkin sahələrinə çevrilən torpaqlarımız qızılı taxıl zəmilərinə, gözoxşayan üzüm bağlarına çevriləcək. Qara torpaq onu əkib-becərənlər, önündə min dəfə baş əyənlər qarşısında üzüqara qalmayacaq, çəkilən zəhmətin qarşılığını birə-on qaytara biləcək. Və o zaman insanlar soyuq qarın qor istisini ürəklərində hiss edə biləcək, keçmişin qaranlıq günlərinin acı xatirələrinin qara səhifələrini qar bəyazına çevirə biləcəklər.

Hə, əziz oxucular. Sizi deyə bilmərəm, ancaq mənim üçün pəncərədən gördüyüm yağan qar keçmişin həzin duyğularını oyatsa da, bu gün üçün xoş təəssüratlar yaradır.

**✍ Səbuhi HÜSEYNOV**


### Bildiriş

"Əbrəqunus Şərab" Açıq Səhmdar Cəmiyyətinin (VÖEN-0600049712) təşkilati-hüquqi forması dəyişilərək "Əbrəqunus Şərab" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

### İtmişdir

"Vəfa" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 0900032351 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

"İnci" Kiçik Müəssisəsinə aid olan texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Əlincə məhəlləsi 9, bina 2B-də yerləşən Hüseynova Gülsüm Kərim qızına məxsus qeyri-yaşayış sahəsinin 191 inventar nömrəli texniki pasportu və MH-0037128 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 937